# Daim axtarışda



***Azərbaycan bəstəkarlarının bayraqdarı dahi Üzeyir Hacıbəyovun ev-muzeyi 31 ildir ki, fəaliyyət göstərir. Bakının Şamil Əzizbəyov küçəsində yerləşən bu ev-muzeyinin hər il yüzlərlə, minlərlə qonağı olur. Bu illər ərzində muzeyin şöhrəti təkcə Azərbaycanda deyil, eləcə də ölkəmizin hüdudlarından kənarda geniş yayılmışdır. Buraya demək olar ki, dünyanın hər yerindən qonaqlar gəlir. Muzeyin rəy kitabına 40-dan artıq dünya xalqlarının dilində yazılmış hərarətli ürək sözləri bu deyilənlərə əyani sübutdur.***

Vaxtilə H.Cavidin, C.Cabbarlının, C.Məmmədquluzadənin, Y.V.Çəmənzəminlinin, Ə.Haqverdiyevin, S.Vurğunun, A.Şaiqin, M.Ə.Rəsulzadənin, M.Topçubaşovun, L.Rostropoviçin, R.Qlierin, S.Raxmaninovun və başqa neçə-neçə görkəmli şəxsiyyətlərin qonaq olduqları bu qədim binanın muzeyə çevrildikdən sonra xatirə kitabına M.İbrahimovun, T.Xrennikovun, Ə.Şərifin, S.Rəhimovun, C.Cahangirovun, B.Vahabzadənin, S.Ələsgərovun və yüzlərlə tanınmış elm və incəsənət xadimlərinin, bir sözlə, Üzeyir Hacıbəyov musiqisi pərəstişkarlarının səmimi sözləri yazılmışdır. Musiqisevərlər bəstəkarın ev-muzeyini məbəd adlandırırlar. Hazırda muzey özünün ikinci yüksəliş dövrünü yaşayır. Bu gün biz dahi bəstəkarın ev-muzeyini yalnız eksponatların qorunub saxlanıldığı yer deyil, elmi tədqiqat müəssisəsi, maarifçilik məktəbi adlandırsaq yanılmarıq. Yüzlərlə gənc alim, tələbə, Üzeyir irsinin tədqiqatçıları buraya gələrək muzeyin zəngin fondundan, kitabxanasından, fonotekasından, audio, video disklərindən istifadə edir.

Muzeydə vaxtaşırı müxtəlif mövzularda tədbirlər keçirilir, tematik sərgilər təşkil edilir. Burada təkcə Üzeyir Hacıbəyovun deyil, eləcə də digər görkəmli musiqi xadimlərinin, Hacıbəyovlar nəslinin tanınmış nümayəndələrinin yubileyləri, xatirə günləri, müasir yazıçıların, alimlərin kitablarının təqdimat mərasimləri keçirilir. Bütün tədbirlər videolentə alınır, fotoşəkillərdə əbədiləşir və həmin materiallar da muzey fonduna təhvil verilərək fondun daha da zənginləşməsinə səbəb olur.

Muzeyə gələn qonaqlar ekspozisiya zalları ilə tanış olarkən, Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı haqqında mühazirələri dinləyərkən onları bəstəkarın ölməz musiqisinin həzin sədaları müşayiət edir. Ekspozisiya otaqlarının alt qatında konsert və kino zalları yerləşir. Konsert zalında mütəmadi olaraq Bakı Musiqi, İncəsənət məktəbi şagirdlərinin hesabat konsertləri təşkil edilir. Bu konsertlərin proqramı Ü.Hacıbəyov və onun tələbələrinin əsərləri əsasında tərtib edilir. Konsert zalında eləcə də vaxtaşırı muzeyin tədbirlərinə dəvət edilmiş professional musiqiçilərin, vokalçıların ifaları dinlənilir. Kino zalında isə gələn qonaqlar "Azərbaycanfilm" kinostidiyasında müxtəlif illərdə çəkilmiş, böyük bəstəkarın həyat və yaradıcılığına həsr edilmiş sənədli filmlərə və onun əsərləri əsasında lentə alınmış bədii filmlərə tamaşa edirlər. Qeyd edək ki, bütün bu filmlər yeni videokasetlərə köçürülərək, müasir kinoproyektorlar vasitəsilə nümayiş etdirilir.

Vaxtaşırı müxtəlif radio, televiziya kanallarının əməkdaşları, qəzet, jurnal müxbirləri muzeyə gələrək buradan maraqlı verilişlər, mətbuat materialları hazırlayırlar. Muzey demək olar ki, tez-tez çəkiliş meydançasına çevrilir. Belə ki, Bakı kinostudiyasının əməkdaşları müvafiq sənədli filmlərin çəkilişi üçün muzeyə müraciət edirlər. Bütün bu işlərdə muzey əməkdaşları onlara yaxından kömək edir, çəkilişlərin uğurlu alınması üçün əlverişli şərait yaradırlar.

Muzeyin elmi işçiləri də arxivlərə, kitabxanalara, əlyazmalar fonduna, müxtəlif muzeylərə gedərək Hacıbəyovlar irsinin araşdırılması işini davam etdirir və əldə olunan yeni materiallar, informasiyalar barədə dövri mətbuatda maraqlı yazılarla çıxış edirlər.

Hal-hazırda muzeydə bəstəkarın ədəbi irsinin köhnə əlifbadan latın qrafikasına çevrilməsi, musiqilərinin isə köhnə lentlərdən yeni disklərə köçürülməsi işi davam etdirilir.

Yuxarıda qeyd etdiyimiz kimi muzeyin fondu daim müvafiq qəzet, jurnal materialları, yeni kitablar, əşyalar, əlyazmaları, müxtəlif sənədlər, audio, video lentlərlə zənginləşir. Son zamanlar fondumuza daha bir neçə qiymətli eksponat daxil edilmişdir. Bunlardan birincisi istedadlı rəssam Hüseyn Hacıyev fırçasının məhsulu olan Ceyhun bəyin portretidir. Rəssam bu əsəri təmənnasız olaraq dahi bəstəkarın ev-muzeyinə hədiyyə etmişdir. Hüseyn Hacıyev bundan öncə bəstəkarın böyük qardaşı Zülfüqar Hacıbəyovun rəsmini işləyib muzeyə bağışlamışdı. Qeyd edək ki, Hüseyn Hacıyev həm də Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu" operalarının 1983, 1985-ci illərdə dərc edilmiş partituralarına çəkilmiş gözəl illüstrasiyaların müəllifidir. Bu məqalə vasitəsilə muzeyin əməkdaşları adından biz Hüseyn Hacıyevə ev-muzeyinə göstərdiyi bu diqqətə görə dərin minnətdarlığımızı bildiririk.

Üzərində Üzeyir Hacıbəyovun əksi təsvir olunmuş iri həcmli güldan da muzeyin yeni eksponatlarındandır. Əl işi olan bu güldanın üstü xırda əlvan muncuqlarla çox zövqlə

bəzədilmişdir. Bu nəfis şəkildə düzəldilmiş qiymətli güldanın müəllifi Oqtay Zülfüqarovdur. Xalqımızın istedadlı bəstəkar kimi tanıdığı Oqtay Zülfüqarovun incəsənətin bu növündə də usta olması muzeyə gələn qonaqların böyük marağına səbəb olur. Güldan muzeyin direktoru Sərdar Fərəcovun təşəbbüsü, Mədəniyyət və Turizm Nazirliyinin sərəncamı ilə xalça muzeyindən dahi bəstəkarın ev-muzeyinə köçürülmüşdür.

Bu günlərdə muzeyimiz daha bir yeni eksponatla zənginləşmişdir. Bu, Hacıbəyovlar ailəsinə məxsus nadir bir fotoşəkildir. Fotoda gənc Üzeyir anası, bacıları, qardaşları və digər yaxın qohumları ilə təsvir edilmişdir. İnanırıq ki, yenicə əldə etdiyimiz bu fotoşəkil də muzeyə gələnlərin böyük marağına səbəb olacaqdır.

Fondumuza yeni daxil olmuş başqa bir fotoşəkil məşhur aktyor, Məcnun rolunun mahir ifaçısı Hüseynqulu Sarabskiyə məxsusdur. Fotoşəklin arxasında aktyorun öz xəttilə bu sözlər yazılmışdır: "Əbədi yadigar Azərbaycan operasının 30 illik bayramı münasibətilə öz əksimi əziz yoldaşım, Azərbaycan operasının banisi Üzeyir Hacıbəyova təqdim edirəm".

1996-cı ildə Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası əsasında çəkilmiş 2 seriyalı film-operanın DVD-si də muzeyin videotekasına 2006-cı ilin aprel ayında daxil edilmişdir. Üzərində xatirə sözləri yazılmış DVD-ni filmin rejissoru Şamil Nəcəfzadə muzeyə hədiyyə etmişdir. Muzeyə gələn qonaqlar bu filmə baxmaq imkanı da əldə edirlər.

Musiqişünas Fərəh Tahirova özünün 2006-cı ildə nəşr edilmiş "Dmitriy Şostakoviç i Azerbaydjanskaə muzıkalğnaə kulğtura", Cəmilə Həsənova isə 2004-cü ildə nəşr edilmiş "Azərbaycan bəstəkarlarının əsərlərində milli ladların təzahürü" kitablarını bu günlərdə muzeyə təqdim etmişlər. Hər iki müəllif kitabın yaranması zamanı arxiv materiallarından, fotoşəkillərdən istifadə etdikləri üçün Üzeyir Hacıbəyovun ev-muzeyinə öz minnətdarlıqlarını bildirirlər.

Cari il musiqisevərlərin yaddaşına uzaq Vyana şəhərində ölməz bəstəkarın abidəsinin açılışı ilə həkk olundu. Bu hadisə Üzeyir musiqisinin bəşəriyyət tarixində özünəməxsus yeri olduğunu bir daha sübut etdi.

Dahi bəstəkarın ev-muzeyinin əməkdaşları da onun xatirəsini daim uca tutaraq, tez-tez məzarını ziyarət edir, irsinin göz bəbəyi kimi qorunub gələcək nəsillərə çatdırılması işini müqəddəs borcları hesab edirlər. Fürsətdən istifadə edərək respublikamızın bütün sənətsevər ictimaiyyətini muzeyin təmirdən sonra daha da gözəlləşmiş, yeni eksponatlarla zənginləşmiş ekspozisiya zalları ilə tanış olmağa dəvət edirik.

**Gülnarə ƏLƏSGƏROVA**
***Üzeyir Hacıbəyovun ev-muzeyinin şöbə müdiri***